

*İnqilab İSAQ*

### *BELƏ YANANDA...*

Öldü...
Ayıldı dostları,
Ayıldı nekroloq yazacaq qələm.
Daldan atılan daş kimi.
Sözlər döndü nitqə...
Bir azdan
atəşi sönəcək
təəssüflər bir aləm,
sözlər bir aləm,
Kimi qardaş dedi,
Kimi adaş dedi,
Kimi də pıçıltıyla yavaş dedi.
- Eşidər torpaq
İzi bağlanmış,
Üzü bağlanmış
Adamın
Tanıyar dərdini.
Belə yananda,
Belə yalanda,
Adam ölər də...

### *GƏMİLƏR ÜZƏR*

*Vətən sevdalı*
*Mübariz Mənsimov üçün*

Üzər gəmilər,
üzər...
Yorulmayan mavi təbəssümlü
Dalğaları yara-yara.
İçində
gələcək qanadlı,
Vətən adlı
Yelkənli ümidlər.
Amma hardasa bir uşaq
Kağız qayıqlarını
Tapşırar çaylara,
Elə bu ara
Xəyallarda okean arzusu,
Bir də qayıqların
yenilməz hünəri
Dönər gəmilərə...
Üzdükcə üzər ,
dinc, məsum, sahilə qədər.
Yenə də xəyal, xəyal,
Yenə də sahildə uşaq ləpirləri...

### *EŞİDƏR ATAMIN QƏBRİ...*

Sən qürbət havasında
Daddığın şəkərdi.
Mən yurd davasında
Daddığım zəhərdi.
Fərqi görə-görə
Öyünmə.
Vətəndə...
Vətənə deyinmə...
Eşidər atamın qəbri.
Belindən atar səni,
Canını hara qoyarsan?

### *MÜMKÜNSƏ...*

Deyirsən bu gün
ad günündü.
Mənsə bilmirəm necə susdurum
Vaxtın həyəcan təbilini?
Görmürsənmi,
yenə də
Xatirə üçün nəfəs dərirəm.
Amma unutma ki
bütün təbriklərin
ən gözəli,
Vaxtı yada salmamaqdı.
İnanırsanmı -
bir qafiyə də
bağlanmır dağılmış fikirlərimə.
Sən yanımdasan, Taleyim!
Sən yanımdasan, əbədi hədiyyəm.
Nə olar, ad günümü
Təqvimə çevirmə.
Ömür mənim hakimiyyətimdi,
Onu yaddaşla devirmə!

### *MACAL*

Nə olar ad-sanın uca olanda,
Adam darıxanda özündən bezər?
Ürəyin tanrının əkdiyi tumdu,
Sən də əkinçi ol, bu tumu becər.

Gecənin, gündüzün qaçıb dalınca,
Yiyəsiz yolları qovmağa dəyməz.
Nəfəs də qamətdi, boydu, boydu ey...
Adam oturduğu budağı əyməz.

Cığır da qaranal - o yorğa at da,
Neyləsin yol açan, daban salmasın,
Gərək doğulanda elə susasan,
Sətrində, sözündə yalan qalmasın.
Çək-çevir içində qaranlıq, işıq,
Kimdi zülmət yaran mənzil başına?
Küsəndə xətirçün barışmayasan,
Gedib əyləşəsən səbr daşında.

Özünə gəlməyə macal olmaya,
Fikrin söz becərə, işıq daraya.
Düşməyə sükutun nəfəsi kökdən,
Düşməyə kimsənin sözü ayağa.

### *TALE TUFANI*

Beləcə yalvarış... Beləcə yanlış,
Başladı ağılın yalan yerində.
Dili düyünləndi, söz tutammadı,
Ömrün uralanmış, qalan yerində.

Ayıldı zülmətin tən ortasında,
Hıçqırıq döyürdü yad pəncərəni.
Əli havadaydı... bir əl tutmamış,
De, kimə tapşırsın göz yaşın səni?

Ayrılıq bu yerdə salonla dolu,
Hələ inanmırsan hakim hökmünə.
Qova bilmədiyin xatirələri,
Oxşaya-oxşaya öpürsən yenə.

İttiham qəzəbi anlamadığın,
Sözlərdə, kəlmədə tutduqca qərar.
Bayırda başlanan leysan, yağışın,
Səbrində bir damla yoxdu ixtiyar.

Gəlib ayrılıqlar, gəlib haraya...
Ürək də yollarda pozub ünvanı.
Dənizə atılmış sınıq qayıq tək,
Didir dalğaları tale tufanı...

### *SINDIRIM O GÜZGÜNU*

Bu güzgü ki, adam deyil,
Bu güzgü ki, adam döyür.

Ağladığım günü görüb,
Görməmiş gör kimi görüb?

Qara saçın ağınacan,
Ağrı çəkib ağrımacan.

Xəlvət-xəlvət gülüb güzgü,
Diri-diri ölüb güzgü.

Göyüm onda, yerim onda,
Kölgəm onda, sirrim onda.

Sındırımmı o güzgünü?
Axır açım bu tilsimi.

Tanıyım o uçrumu mən,
Can qurtarım o güzgüdən?

### *YORĞUNLUQ...*

Boşluqlara çökən duman,
Dağ ahından dərin, dərin.
Həsrət elə yollar çəkir,
Çəkmir yolları gözlərin.

Qatı kölgə, zülmət kaha,
Hansı dərddə yaddaş oyaq?
Bütün görüş saatları -
Endirilib bayraq-bayraq.

Gəlib nağıl uydurmağa,
Səbrsizdi yenə də ay.
Əldən elə düşmüşəm ki,
Yorğunluqda qapım tay-tay...

### *GÜNAHLARIM, GÜNAHLARIN*

Zaman zalım, yaman zalım,
Toy-düyünü künc-bucaqda.
Yoxsa, sənə dərsmi keçir,
Dərs bilməyən bir uşaq da.

Xəyalları qarğış tutub,
Kölgən gəlməz ələ yaxın.
Göz yaşında yol uzadır,
Günahlarım, günahların.

Susmuş yaddaş yorğunluğu,
Bilməz necə açsın qanad.
Öz odunda cərləyibdi,
Cıdırında qovduğum at.

Biz ki, tale məhbusuyuq
Cəza çəkir fikrimiz də.
İndi elə yoldayıq ki,
Yad adamıq ikimiz də.

### *DÜNYANIN BAHARI*

Puçurla, çiçəklə döyülür qapım,
Havada küləkli yaz ismarıcı.
Torpaq da uşaqtək elə öyünür,
Canında qalmayıb bir çimdik acı.

Qupquru ümiddə canı yanğılı,
Çarəmi axtarır çiçək açmağa?
Soyuq söz demək də gəlmir əlimdən,
Harda qanadlanım, könül, uçmağa?

Tikan gül üstündə xəcalət çəkir,
Bilmir bədniyyəti gizləsin, necə?
Bir arx qırağında çərləyən söyüd,
Yolları həsrətdə gözləsin, necə?

Xəyalın ağlına gör nələr gəlir,
Telinə bənövşə düzən qıza bax.
Utancaq istəklər sözdə közərir,
Xəbəri taybatay qapımıza bax.

Belə çal-çağırda de, kim darıxar?
Göylərə baxıram, gözüm doyunca.
Sinəmdən arxalı qışı qovuram,
Dünyanın baharı bahar olunca...

### *DÖZÜM*

Elə bu dözüm də dözümsüz işdi,
Yaxa düymələyir, cilovu dartır.
Özündən çıxana qapı bağlayıb,
Açarı dəryalar dibinə atır.

Yellənib yellərə qoşulur elə,
Yuxudan eyləyir oğul-uşağı.
Gözə görünməyə işıqmı qəhət?
Qaşdan əl endirib uzat uzağı.

Yolların o başı, bu başı qaçaq,
Daha dözümlərin yaman günüdü.
Nəfəs dərə-dərə itib batmışıq,
Yamana dözməyin, aman günüdü.

Günəşi danmaqmı zülmün niyyəti?
Ağrılar fürsəti tətiyə çəkir.
Dağa güvənməyən, zirvə aşmayan,
İzini arxayın təpəyə çəkir.

...Elə bu dözüm də dözümsüz işdi,
Yaxa düymələyir, cilovu dartır.
Özündən çıxana qapı bağlayıb,
Açarı dəryalar dibinə atır.

### *BİLİRƏM, DEYƏCƏKSƏN*

Şaxtadı... soba hənri
Məni çətin qızdırar.
Sən yoxsan, üşüyürəm
Bayırda da tökür qar.

İnciklik bu havada
Canımı lap bezdirir.
Pəncərənə sığınıb
Yenə yazdığım şeir.

Ümid də gec-tez dönər
Peşman olmuş baxışda.
Susmuş bu soyuqluğa
Necə deyim, bağışla?!

Durub qaçaram sizə,
Yol kəsmiş hay-küyünlə,
Dayananda üz-üzə...
Bilirəm, deyəcəksən:
- Əynin yaman yuxadı,
Paltonu at çiyninə...



2021.- 22 aprel.- S.7.